# Xalq-iqtidar birliyinin böyük təntənəsi

Ölkəmizdə keçirilən prezident seçkilərində 3 milyon 394 min 898 (86.02 faiz) seçicinin səsini qazanan cənab İlham Əliyev bir daha Azərbaycan xalqının alternativsiz lideri olduğunu təsdiqlədi. Dünən isə Milli Məclisdə andiçmə mərasimi keçirildi. Prezident İlham Əliyev vətənə, xalqa və dövlətə sədaqət andı içdi.

Milli Məclisin deputatları da hesab edirlər ki, tam demokratik, şəffaf və ədalətli şəkildə keçirilən seçkilərin nəticəsi Azərbaycan xalqının iradəsini əks etdirib.













## Möhtəşəm uğurların təminatçısı

**Bahar MURADOVA,**
*Milli Məclis Sədrinin müavini, İnsan hüquqları komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü:*

- Fevral ayından başlanan prezident seçkiləri kampaniyası yenidən xalqın etimadına layiq görülən cənab İlham Əliyevin dünən Milli Məclisdə and içməsi ilə rəsmən başa çatdı. Qədirbilən xalqımız ulu öndər Heydər Əliyevin siyasi varisi cənab İlham Əliyevin 11 aprel prezident seçkilərində inamlı qələbəsini böyük coşqu ilə qeyd edir. Bu, təkcə Prezident İlham Əliyevin deyil, onun apardığı siyasətə qəlbən inanan ölkə vətəndaşlarının, dövlətimizin qurucusunun şərəfli adı ilə bağlı Yeni Azərbaycan Partiyasının hər bir üzvünün qələbəsidir!

Ölkə vətəndaşları yaxşı başa düşürlər ki, müasir Azərbaycan, onun əldə etdiyi uğurlar təkcə xalqımızın özünüidarə bacarığının, milli varlığımızın əzəmətli sübutu deyil, həm də müstəqil dövlətçilik sistemimizin necə bir sağlam təməllər üzərində bərqərar olduğunun göstəricisidir.

İlham Əliyev çağdaş dönəmdə xalqın ən ümdə arzularının daşıyıcısı kimi onları həyata keçirmək üçün öz qüvvə və bacarığını əsirgəməyən liderlik və dərin şəxsi keyfiyyətlərə malik bir siyasətçidir. O, siyasi fəaliyyəti dövründə reallığı düzgün qiymətləndirmək bacarığı, praqmatikliyi, səmimiliyi və alicənablığı, məqsədə doğru inamla irələləmək qətiyyəti ilə xalqın dərin inam və sevgisini qazanmışdır. Məhz ölkə əhalisinin öz liderinə olan bu inamı dövlətin qarşısında duran vəzifələrin yerinə yetirilməsində, həlli çətin görünən problemlərin aradan qaldırılmasında Prezident İlham Əliyevə güc və qüvvət vermişdir.

İlham Əliyev hakimiyyətdə olduğu 15 il ərzində doğma Azərbaycanın simasını tamamilə dəyişərək, onu Cənubi Qafqazın lider dövlətinə, bölgədə kosmik klubun ilk üzvünə, regionda söz sahibinə çevirmişdir. Bu, bir həqiqətdir ki, **"Cənubi Qafqazda heç bir layihə bu gün Azərbaycanın iştirakı olmadan reallaşa bilməz."** Azərbaycan bütün bunlara ulu öndərin milli, tarixi köklərə söykənən uzaqgörən siyasətinin uğurlu davamı nəticəsində nail olmuşdur.

Tale elə gətirmişdir ki, budəfəki prezident seçkiləri müstəqilliyimizin memarı Heydər Əliyevin 95 illiyinə, Şərqdə ilk parlamentli respublikanın - Xalq Cümhuriyyətinin 100 illik yubileyinə və rəşadətli ordumuzun cəbhədə əldə etdiyi uğurların ildönümünə təsadüf etmişdir. Xalqımız əsgərlərimizin 2016-cı il aprel zəfərini yaxşı xatırlayır. O günlər Cocuq Mərcanlı kəndinin, Lələtəpənin qəhrəman övladlarımız tərəfindən azad edilməsi hamının böyük sevincinə səbəb olmuşdur. Bu, orduda aparılan quruculuq işlərinin məntiqi nəticəsi idi. Heç kim şübhə etmir ki, **"...biz gec-tez işğal altında olan öz torpaqlarımıza qayıdacağıq."** Bunu artıq düşmənlərimiz də dərk edirlər!

İlham Əliyev prezident seçkilərinə YAP-ın namizədi kimi qatılaraq ulu öndərin dərin fəlsəfi düşüncələrinin, ideyalarının daşıyıcısı olan bu partiyanın hələ uzun müddət dövlət idarəçiliyində iştirak edəcəyinin anonsunu verdi. Bu isə partiya üzvlərinin və onun gənc nümayəndələrinin aparılan siyasətə inamını daha da artırır. Heç də təsadüfi deyildir ki, seçkiləri müşahidə edən xarici KİV nümayəndələri, beynəlxalq təşkilatların təmsilçiləri seçki sonrası verdikləri bəyanatlarda müasir Azərbaycan gəncliyinin və qadınların bu prosesdə fəal iştirakını dönə-dönə vurğulamışlar.

Seçki kampaniyasının bütün mərhələlərində namizədlərin hər biri üçün bərabər şərait yaradılmış, vətəndaşların sərbəst toplaşmaq hüququ təmin edilmişdir. Fikir və ideya plüralizmi prosesin bütün mərhələlərində müşahidə olunmuşdur. Qətiyyətlə deyə bilərik ki, seçkiyə qatılanların aktiv və passiv seçki hüququndan sərbəst istifadə etmələri üçün hər cür şərait yaradılmışdır.

Seçki özlüyündə hüququn aliliyi, demokratik dəyərlərə, söz və mətbuat azadlığına bəslənilən münasibətin göstəricisi olmaqla yanaşı, həm də demokratik dəyərlərin inkişaf səviyyəsinin bir göstəricisidir. Bu dəfə də ölkəmiz bu sınaqdan ləyaqətlə çıxmışdır.

Aprelin 11-də seçicilərin 86,02 faizi - böyük əksəriyyəti, öz layiqli namizədinə səs verməklə, ölkənin növbəti 7 ilə idarə olunmasını ulu öndərin siyasi varisi İlham Əliyevə həvalə etdi. Bu isə **"İnkişafa davam"**, qarşıda duran **"hədəflərə doğru qətiyyətlə irəli"**ləmək anlamına gəlir. Çünki son 15 ildə müstəqil Azərbaycanın əldə etdiyi uğurlar bu fikri söyləməyə əsas verir. Cənab İlham Əliyevin təbirincə desək, **"bu seçkilərdə Azərbaycan xalqı sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə səs vermiş, son 15 il ərzində görülən işlərə yüksək qiymət vermişdir. Bütün bu uğurları biz birlikdə qazandıq. Xalq-iqtidar birliyi, bizim məqsədyönlü siyasətimiz Azərbaycanı qüdrətli dövlətə çevirmişdir".**

## Dəyişməz seçim

**Hüseynbala MİRƏLƏMOV,**
*Milli Məclisin deputatı, YAP Xətai rayon təşkilatının sədri:*

- Prezident İlham Əliyev Milli Məclisdə and içməsi ilə rəsmən növbəti dövr üçün vəzifəsinin icrasına başladı. Dövlət başçısının çıxışından bəlli olduğu kimi, qarşıdakı 7 ilin prioritetləri, gediləcək yol məlumdur. Və bu yolda məqsəd Azərbaycanı daha da gücləndirmək, daha da inkişaf etdirmək, daha qüdrətli dövlətə çevirməkdir.

Ümumiyyətlə, 11 aprel seçkiləri müdrik və qədirbilən xalqımızın öz taleyinə biganə qalmamasının, gələcək naminə dürüst seçim etməsinin, ən layiqli namizədə səs verməsinin əyani təsdiqi kimi tarixiləşdi. Xalqımız daxili inamına söykənərək ölkəni əlahiddə inkişaf yoluna çıxarmış siyasətin müəllifinə - cənab İlham Əliyevə səs verməklə ağı qaradan seçməyi bacardığını, ölkənin taleyinə biganə olmadığını göstərdi. Bu tarixi seçim həm də belə bir həqiqətin cəmiyyətdə obyektiv dərkidir ki, Azərbaycanın gələcək tərəqqisi, dinamik inkişafı məhz mövcud siyasi kursun davamlılığının təminatından asılıdır.

Əslində, 2018-ci ilin prezident seçkiləri tamam fərqli bir inkişaf mərhələsinə təsadüf edirdi. Elə bir mərhələyə ki, mövcud həyat reallıqları fonunda kiminsə səhv etməsi, yanılması tamamən istisna idi. Seçim anında vətəndaşın mövqeyinə təsir edəcək, onu tərəddüdlə üzləşdirəcək hansısa mühüm amil, yaxud da ciddi siyasi qüvvə gözə dəymirdi. Bu mənada ölkə vətəndaşları son seçkilərdə cənab İlham Əliyevin şəxsində məhz inkişaf etmiş Azərbaycana, onun davamlı uğurlarına, güvənli gələcəyinə - bir sözlə, sabitlik, inkişaf və rifaha səs verdilər. Beləliklə, seçicilərin 86,02 faizinin səsini qazanmış cənab İlham Əliyevin ölkəni daha böyük uğurlara aparacaq alternativsiz lider olduğu bir daha yəqinləşmişdir. Bu yüksək etimad ilk növbədə hələ 2003-cü ilin oktyabrında "Mən hər bir azərbaycanlının prezidenti olacağam" deməklə səlahiyyətlərinin icrasına başlamış cənab İlham Əliyevin ötən 15 ildə Azərbaycanı dinamik inkişaf yoluna çıxarması ilə şərtlənmiş, tərəqqi kursunun vətəndaşlar tərəfindən dəstəklənməsinin təcəssümü olmuşdur.

Cənab İlham Əliyev aprelin 11-də keçirilən seçkilərdə ona göstərilən böyük etimada görə xalqımıza müraciət edərək minnətdarlığını bildirib: "Prezident seçkilərində Azərbaycan xalqı yenidən mənə böyük etimad göstərmişdir. Bu etimada, bu böyük dəstəyə görə doğma xalqıma minnətdarlığımı bildirmək istəyirəm. Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək bizim inkişafımız üçün əsas şərtdir. Xalq-iqtidar birliyi Azərbaycanda inkişafımızın əsas amilidir. Bu seçkilərdə Azərbaycan xalqı sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə səs vermiş, son 15 il ərzində görülən işlərə yüksək qiymət vermişdir. Bütün bu uğurları biz sizinlə birlikdə qazandıq".

Cəmiyyətdəki çoxluğun mənafeyinə cavab verən praqmatik və realist siyasət yürüdən Prezident İlham Əliyevin bu seçkilərdə möhtəşəm qələbəsini şərtləndirən əsas amillərdən biri onun son 15 ildə məhz Heydər Əliyev siyasi kursuna istinad etməsi, ulu öndərin ideyalarını bütün sahələrdə gerçəkləşdirməsi, zənginləşdirməsidir. Başqa sözlə, Azərbaycan seçicisinin dəyişməz mövqeyini həm də dövlətin və xalqın maraqları şərtləndirmişdir.

Xalqın seçimi həm də növbəti illərdə Prezident İlham Əliyevin Azərbaycanın tərəqqi və inkişafına, uğurlu gələcəyinə daha çox töhfələr verəcəyinə olan dərin və səmimi inamdan qaynaqlanır. Ölkə vətəndaşları Heydər Əliyev siyasi kursunu yeganə nicat və istinadgah mənbəyi seçdikləri kimi, qarşıdakı 7 ildə məhz Azərbaycanın taleyini ulu öndərin layiqli davamçısı - Azərbaycan Prezidenti cənab İlham Əliyevə etibar etmişlər.

Cənab İlham Əliyevin yürütdüyü siyasətin dəstəklənməsi həm də onun nəzəriyyəçidən daha çox praktik olması ilə şərtlənir. O, inkişafa xidmət edən mütərəqqi fikir və ideyalarını ictimai rəyə hesablanmış hansısa populist bəyanatlar üzərində deyil, reallıqda təsdiqini tapmış müddəalar üzərində qurur. Auditoriyanın xarakterindən asılı olmayaraq, Azərbaycan Prezidenti insanlarla bütün ünsiyyət anlarında müstəqil dövlətimizin qarşısında dayanan yeni planlar, perspektivlər haqqında fikir və düşüncələrini aydın şəkildə, həm də elmi əsaslarla çatdırır. Cənab İlham Əliyev hər cür pafosdan, populizmdən uzaq olan, praqmatik, realist təfəkkürlü liderdir. Ölkə rəhbərinin elə bir vədi yoxdur ki, ötən 15 ildə bəyanat səviyyəsində reallaşmamış qalsın. Əksinə, cəmi 15 ildə həyata keçirilən islahatların - real miqyasına, əhəmiyyətinə görə - ən azından onilliklər ərzində gerçəkləşdirilməsi mümkünlüyü inkarolunmaz reallıqdır.

Əminliklə demək olar ki, Azərbaycan xalqını xoşbəxt gələcəyə aparan bu siyasət növbəti 7 ildə də uğurla davam etdiriləcək, respublikamız cənab İlham Əliyevin rəhbərliyi ilə daha möhtəşəm inkişaf zirvələrini fəth edəcəkdir.

## Xalq İlham Əliyevin şəxsində inkişafın davamına səs verdi

**Tahir SÜLEYMANOV,**
*Milli Məclisin deputatı:*

- Mən İlham Əliyev kimi prezidentimizin olması ilə fəxr edirəm, qürur duyuram!

Cənab İlham Əliyev bundan əvvəlki prezidentlik müddətlərində ulu öndər Heydər Əliyevin milli inkişaf strategiyasını yeni dövrün tələbləri, modern yanaşma ilə uğurla davam etdirməklə ümummilli liderin siyasi kursunun alternativsizliyini birmənalı təsdiqləmişdir. Xalqın aprelin 11-dəki müdrik seçimi isə bir daha Heydər Əliyev siyasi kursunun Azərbaycanın yeganə nicat yeri olduğunu, milli inkişafda mühüm rol oynadığını növbəti dəfə təsdiqlədi. Hər bir vətəndaşın mənafeyi uca tutulmaqla həyata keçirilən bu siyasi kursun böyük ictimai etimada, dəstəyə malik olduğu növbəti dəfə sübuta yetdi.

15 ilin nailiyyətləri sübut edir ki, ulu öndərin müstəqil Azərbaycanın gələcəyi üçün nəzərdə tutduğu bütün işlər böyük uğurla həyata keçirilir. Son 15 il ərzində Azərbaycanın sürətli inkişafı, enerji sahəsi ilə yanaşı qeyri-neft sektorunun önəmli şəkildə tərəqqisi, əhalinin aztəminatlı hissəsinin, bütövlükdə isə hər bir vətəndaşın maddi rifah halının yuksəlməsi, Azərbaycanın milli mənafeyinə cavab verən müstəqil xarici siyasətin yürüdülməsi Prezident İlham Əliyevin vahid siyasi platformaya söykənən, çoxşaxəli və genişmiqyaslı strateji xəttinin prioritet istiqamətləri olmaqla qazanılan uğurların göstəricisidir.

Prezident İlham Əliyevin ötən dövr ərzində respublikada həyata keçirdiyi sosial-iqtisadi islahatlar həm də dövlət başçısının yüksək idarəçilik qabiliyyətinin və mükəmməl iş təcrübəsinin əyani təzahürlərindən biri kimi qiymətləndirilir. Ölkənin bütün problemlərinə milli dövlətçilik prinsipləri kontekstindən yanaşan, cəmiyyətin ümumi inkişaf qanunauyğunluqlarını dəqiq şəkildə qiymətləndirməyi bacaran, eyni zamanda, ictimai həyatın ən müxtəlif spektrlərindəki çətinliklər və nöqsanlar haqqında aydın təsəvvürə malik olan Prezident İlham Əliyev məhz bu keyfiyyətləri sayəsində yeni dövr üçün qarşıda duran konkret vəzifələri dəqiq şəkildə müəyyənləşdirməyə müvəffəq olub.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın daha xoş sabaha olan inamını qat-qat artırıb. Dövlət başçısının uzaqgörən siyasəti, genişmiqyaslı islahatçı fəaliyyəti, o cümlədən müstəsna təşkilatçılığı sayəsində bütün bu istiqamətlərdə qazanılmış nailiyyətlər hər bir Azərbaycan vətəndaşının qəlbində milli iftixar və ölkəmizin işıqlı gələcəyinə dərin inam hisslərini daha da gücləndirib. Hər bir uğur vətəndaşların Prezident İlham Əliyevə olan etimadını daha da artırıb, milli həmrəyliyi sıx edib. 86,02 faiz seçicinin öz səsini cənab İlham Əliyevə verməsi göstərir ki, ölkə vətəndaşları alternativi olmayan bu siyasətin gətirdiyi nailiyyətlərə, dövlətçilik əsasları uğurlarla möhkəmlənən, xoşbəxt sabahına doğru inamla irələyən, inkişaf edən qüdrətli Azərbaycana səs verdilər.

Aprelin 11-də keçirilən seçkilərdə ona göstərilən böyük etimada görə xalqımıza müraciət edərək minnətdarlığını bildirən Prezident İlham Əliyev inkişaf siyasətinin bundan sonra da davam etdiriləcəyini deyib: "Biz daha güclü olmalıyıq. Güclü olmaq üçün daha güclü iqtisadiyyat qurmalıyıq. Son 15 il ərzində iqtisadi sahədə Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. İqtisadiyyatımız 3,2 dəfə artmışdır və bu gün Azərbaycan dünyanın ən rəqabətqabiliyyətli ölkələri sırasındadır. Rəqabət qabiliyyətliliyinə görə biz 35-ci yerdəyik. Siyasətimizin mərkəzində həmişə Azərbaycan vətəndaşı, onun problemləri, qayğıları, onun rifahı olubdur. Son 15 il ərzində maaşlar və pensiyalar 8 dəfə artmışdır. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir".

Cənab İlham Əliyev mənim də sıralarında xidmət etdiyim Yeni Azərbaycan Partiyasının namizədi idi. Ona görə bu seçkidə bizim də üzərimizə mühüm, məsuliyyətli və mənəvi vəzifələr düşürdü. YAP üzvləri ilk gündən bu məsuliyyətin öhdəsindən layiqincə gəldilər. Təsadüfi deyil ki, təbliğat və təşviqatın bütün mərhələlərində YAP-ın fəalları böyük fədakarlıq nümayiş etdirdilər. Xüsusilə, qarşımıza qoyduğumuz hədəflərin, müəyyənləşdirdiyimiz "İlhamla irəli" şüarının mahiyyətinin seçicilərin diqqətinə çatdırılması ilə əlaqədar çox böyük təşviqat işləri həyata keçirildi. Müxtəlif görüşlərdə aparılan söhbətlər əsnasında biz YAP olaraq növbəti 7 il üçün Azərbaycan vətəndaşlarına nələri vəd etmək niyyətində olduğumuzu çatdıra bildik.

Ölkədə bütün sahələrdə gedən inkişaf proseslərinin davamlı olmasına öz seçimi ilə töhfə verən Azərbaycan xalqı bu seçkilərdə İlham Əliyevə dəstəyini növbəti dəfə nümayiş etdirdi. Bu seçim, eyni zamanda, Azərbaycan cəmiyyətinin öz layiqli liderinə sarsılmaz inam və rəğbətinin əyani təcəssümü olmaqla, mütləq əksəriyyətin istək və arzusunu özündə təcəssüm etdirməklə yanaşı, islahatlar kursunun qarşıdakı 7 ildə uğurlu davamına etibarlı təminat yaratmaq istəyindən irəli gəlir. Beləliklə, aprelin 11-də keçirilmiş prezident seçkilərinin nəticələri göstərdi ki, Azərbaycan cəmiyyəti hazırkı siyasi kursu sürətli inkişafın və gələcək uğurların mühüm şərti olaraq qəbul edir.

## Davamlı inkişafa yol açan müdrik və doğru seçim

**Nəsib MƏHƏMMƏLİYEV,**
*Milli Məclisin deputatı:*

- Azərbaycan dövləti və xalqı demokratiya yolu ilə inamla irəlilədiyini bu günlərdə başa çatan mühüm siyasi hadisə - prezident seçkiləri ilə bir daha bütün dünyaya nümayiş etdirdi. Bu seçki bütün parametrləri ilə Azərbaycanın siyasi tarixinə növbəti demokratik, şəffaf, ədalətli və azad seçkilər kimi düşdü. Azərbaycan xalqı özünün tarixi və ən doğru seçimini edərək cənab İlham Əliyevlə davama səs verdi. Aprelin 18-də isə Milli Məclisdə Prezident İlham Əliyevin and içməsi oldu. Cənab Prezidentin çıxışı göstərdi ki, növbəti 7 ildə Azərbaycan daha böyük hədəfləri layiqincə dəf edəcək.

Son 15 ildə Azərbaycanı davamlı inkişaf və tərəqqi yoluna çıxararaq təminatlı gələcəyə etibarlı zəmin yaradan mövcud siyasi kursun davam etdirilməsi son prezident seçkilərində cəmiyyətin həlledici çoxluğunun iradəsi kimi önə çıxdı və xalqımız olduqca müdrik və ən doğru seçimini edərək birmənalı şəkildə növbəti 7 ildə öz taleyini cənab İlham Əliyevə etibar etdi Mütləq əksəriyyət yəni, seçicilərin 86,02 faizi aprelin 11-də populist və irreal vədləri deyil, əməli işi, konkret nəticəni, firavan sabahı seçdiyini nümayiş etdirdi.

Ötən 15 ilin mənzərəsinin bəzi aspektlərinə qısaca nəzər salmaqla xalqın İlham Əliyevə verdiyi növbəti etimad mandatının əsasında hansı səbəblərin dayandığını görmək olar. Bu dövrdə respublikada uğurla həyata keçirilən siyasət, ilk növbədə, Azərbaycanın inkişafı və güclənməsi məqsədlərinə yönəlib. Cənab İlham Əliyev bu illər ərzindəki fəaliyyəti ilə xalqın seçimini doğrultmağa qadir qətiyyətli, peşəkar və milli maraqlara bağlı rəhbər olduğunu nümayiş etdirib. Yüksək siyasi iradəsi, qətiyyətliliyi, məqsədə doğru inamla irəliləməsi, milli maraqlara sadiqliyi, praqmatizmi, təvazökarlığı və sadəliyi, ən əsası, Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı olması dövlət başçısının prezident seçkilərində xalq tərəfindən yüksək dəstək almasını birmənalı təmin edib.

Bəli, məhz Prezident İlham Əliyevin rəhbərliyi altında son 15 ildə möhtəşəm inkişaf yolu keçən Azərbaycan öz dövlətçiliyini inkişaf etdirib, siyasi və iqtisadi müstəqilliyini daha da möhkəmləndirib. Cənab İlham Əliyevin sayəsində dünyada sürətli iqtisadi inkişaf dinamikası nümayiş etdirən, liberal prinsiplərə əsaslanmış iqtisadi modelini yaradan Azərbaycanın bu dövrdə həm regional, həm qlobal miqyasda nüfuzu yüksəlib, ölkəmiz geoiqtisadi və geosiyasi oyunçuya çevrilib. Prezident İlham Əliyevin rəhbərliyi altında respublikamız bölgənin liderinə və dünyanın ən nüfuzlu ölkələrindən birinə çevrilib, BMT Təhlükəsizlik Şurasına sədrlik etmək kimi möhtəşəm tarixi məqama sahib olub.

Cənab İlham Əliyevin ötən 15 illik prezidentlik dövrü ölkə həyatı üçün strateji əhəmiyyət kəsb edən inkişaf proqramlarının hazırlanması və işlək mexanizmlər əsasında həyata keçirilməsi, ən müxtəlif sahələrdə intibah və tərəqqi prosesinin geniş vüsət alması ilə səciyyəvidir. Ümumiləşdirilmiş tərzdə ifadə etsək, qlobal enerji və nəqliyyat-kommunikasiya layihələrinin uğurla gerçəkləşdirilməsi, Avropanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın rolunun artırılması, neft strategiyasının milli mənafelərə uyğun davam etdirilməsi, eyni zamanda, qeyri-neft sektorunun ümumi daxili məhsuldakı çəkisinin yüksəldilməsi, regionların tarazlı və davamlı inkişafı, yeni istehsal müəssisələrinin açılması, işsizlik, yoxsulluq problemlərinin tədricən aradan qaldırılması, əhalinin sosial müdafiəsi tədbirlərinin gücləndirilməsi, infrastrukturun bütün sferalarda yeniləşdirilməsi məsələləri ötən 15 ildə cənab İlham Əliyevin iqtisadi siyasətinin əsas qayəsini təşkil edib. Demokratikləşmə və vətəndaş cəmiyyəti quruculuğu prosesi, liberal iqtisadi-siyasi mühitin formalaşdırılması, habelə ölkədə güclü insan kapitalının formalaşdırılmasına xidmət edən milli maarifçilik hərəkatının uğurla həyata keçirilməsi, cəmiyyətdə informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi və s. məsələlər də dövlət başçısının xüsusi diqqət mərkəzində olub.

Cənab İlham Əliyevin aprelin 11-də qazandığı qələbə misilsiz olmaqla yanaşı, həm də bundan sonra onun rəhbərliyi altında görüləcək daha böyük, əzəmətli və genişmiqyaslı işlərə xalqın böyük inamının, güvəninin göstəricisidir. İlham Əliyevə verilən hər bir səs, eyni zamanda, Heydər Əliyev siyasi kursuna xalqın etimadını təcəssüm etdirir. Odur ki, bu seçkilərdə də xalqımız cənab İlham Əliyevin ətrafında sıx birləşməklə Heydər Əliyev ideyalarının və siyasətinin davamına səs verdi. Bu mənada cənab İlham Əliyevin qələbəsi hər birimizin - Heydər Əliyev dövlətçilik xəttinə və Azərbaycanın müstəqilliyinə sadiq olan milyonların qələbəsidir.

Seçkilərin nəticəsi həm də Yeni Azərbaycan Partiyasının qələbəsidir. YAP ənənəvi olaraq hər bir seçki kampaniyasına kifayət qədər ciddi şəkildə hazırlaşır. Təcrübə göstərir ki, seçki kampaniyası zamanı YAP-ın, bütövlükdə partiyamızın çoxsaylı fəallarının göstərdiyi fədakarlıq, çəkdiyi əziyyətlər öz bəhrəsini verir. Son prezident seçkiləri də bu mənada istisna olmadı. YAP iki ay davam edən seçki kampaniyası dövründə uğurlu seçki strategiyası müəyyən edərək həyata keçirdi. Hər birimiz yerlərdə, bölgələrdə vətəndaşlarla görüşlər keçirdik və partiyamızın müəyyənləşdirdiyi ümumi strateji xəttə və hədəflərə uyğun olaraq təbliğat işi apardıq. Partiyamızın seçki kampaniyası "İlhamla irəli" şüarı ilə keçirildi və xalqımız haqlı olaraq Prezident İlham Əliyevlə irəliləməyə səs verdi.

Prezident İlham Əliyev bu günümüzün, sabahımızın təminatçısıdır. Ona görə də xalqın bütün təbəqələri daim cənab İlham Əliyevin ətrafında sıx səfərbərdir. Bu mənada 11 aprel seçkilərinin nəticəsi də xalqımızın Heydər Əliyevin ideyalarından və ötən illərin reallıqlarından qidalanan müdrik və dəyişməz seçimidir.

## Bizi işıqlı gələcəyə aparan siyasət növbəti 7 ildə də davam etdiriləcək

**Cavid OSMANOV,**
*Milli Məclisin deputatı, YAP Ağdaş rayon təşkilatının sədri:*

- Ölkəmizin həyatında mühüm siyasi kampaniya olan prezident seçkilərinin əsas mərhələsi artıq geridə qaldı. Və bu mərhələnin, yəni, aprel ayının 11-nə təyin olunmuş səsvermənin nəticəsi isə cəmiyyətin mənafelərini özündə ehtiva edən, ölkəmizi inkişaf yoluna çıxaran hazırkı siyasi kursun alternativsizliyini bir daha sübuta yetirdi. Bu seçki də əvvəlkilər kimi xalqımızın müdrik və dəyişməz seçiminə əsaslandı. Ölkə vətəndaşları növbəti dəfə Heydər Əliyev siyasi kursunun zəfərinə, bu kursun davamçısı kimi ötən 15 ildə Azərbaycanın bütün uğurlarının müəllifi olan cənab İlham Əliyevə səs verdilər.

Aprelin 18-də cənab İlham Əliyev Milli Məclisdə and içməklə növbəti dövr üçün missiyasının icrasına başladı. Öz çıxışında cənab Prezident qarşıdakı dövrün inkişaf mesajlarını çatdırdı, yeni yüksəliş prioritetlərini elan etdi.

Xatırladım ki, fevral ayında respublikamızın siyasi həyatında böyük hadisə kimi dəyərləndirilən Yeni Azərbaycan Partiyasının VI Qurultayında Azərbaycan Prezidenti, partiyamızın sədri cənab İlham Əliyevin 2018-ci ilin prezident seçkilərində namizədliyinin irəli sürülməsi, təkcə YAP-ın 700 mindən artıq üzvünün deyil, bütün Azərbaycan xalqının iradəsinin ifadəsi idi. Çünki hər kəs əmin idi ki, Prezident İlham Əliyevin rəhbərliyi altında növbəti 7 ildə Azərbaycan hərtərəfli inkişaf edəcək və Heydər Əliyev kursunun davamı ölkəmizin güclü, qüdrətli dövlətə çevrilməsinə daha əzəmətli töhfələr verəcək.

Bu əminliyin əsas təminatçısı isə ötən 15 ildə Azərbaycan dövlətinin keçdiyi əzəmətli inkişaf yoludur. Bəli, ümummilli liderin ciddi elmi təməllərə söykənən inkişaf strategiyasını inamla davam etdirən cənab İlham Əliyev qısa müddətdə Azərbaycanı Cənubi Qafqaz regionunun ən sürətlə inkişaf edən, sabit və qüdrətli dövlətinə çevirməyə müvəffəq oldu. Dövlət başçısının rəhbərliyi ilə görülən işlərin miqyası, Azərbaycanın dinamik və hərtərəfli tərəqqisi naminə qəbul edilən və uğurla həyata keçirilən dövlət proqramları, onların real nəticələri, ölkəmizin dünya birliyində öz mövqelərini daha da möhkəmləndirməsi bu həqiqəti bir daha təsdiqləyir.

Ötən 15 ilin yekunlarının təhlili həm də bu qənaətə gəlməyə əsas verir ki, ulu öndər Heydər Əliyevin siyasi kursunun davam etdirilməsi Azərbaycanda ictimai zərurətə çevrilib. Bu kursu layiqincə davam etdirən dövlət başçısı cənab İlham Əliyev hər addımında milli maraq və mənafeləri uca tutur, ölkə vətəndaşlarının arzu və istəyini gerçəkləşdirmək üçün böyük əzmkarlıqla çalışır. Azərbaycan Prezidentinin bu dövrdəki fəaliyyətinin əsas qayəsi xalqa və dövlətə sədaqətli xidmət prinsipi üzərində qurulmuşdur.

Bütün bunları əsas götürən xalqımız 11 apreldə səsvermədə aktiv iştirak etdi. Səsvermədə iştirak edən seçicilərin 86,02 faizi öz səsini cənab İlham Əliyevə verdi. Lakin bu seçim təkcə ən yeni tariximizin möhtəşəm nailiyyətləri ilə şərtlənmir. Bu qərar, eyni zamanda, növbəti illərdə Prezident İlham Əliyevin Azərbaycanın tərəqqi və inkişafına, uğurlu gələcəyinə daha çox töhfələr verəcəyinə olan dərin və səmimi inamın təcəssümüdür. Bu mənada əminliklə demək olar ki, Azərbaycan xalqını xoşbəxt gələcəyə aparan bu siyasət növbəti 7 ildə də uğurla davam etdiriləcək, respublikamız cənab İlham Əliyevin rəhbərliyi altında inkişaf tempini sürətləndirəcək, qabaqcıl dövlətlər arasında layiqli yerini tutacaq.

Seçkilərin ən mühüm fazalarından biri təşviqatdır. Seçki kampaniyası dövründə Yeni Azərbaycan Partiyası da cənab İlham Əliyevin təşviqatının həyata keçirilməsi prosesində üzərinə düşən vəzifələri layiqincə icra etdi. YAP iki ay müddətində çox geniş seçki kampaniyası həyata keçirdi. Bu prosesə YAP-ın çoxsaylı resursları cəlb olunmuşdu. Partiyamızın fəal üzvləri seçki kampaniyasının müxtəlif mərhələlərində ayrı-ayrı seçki hərəkətlərinin həyata keçirilməsində yaxından iştirak etdilər. Nəticə etibarilə ümumi seçkinin həyata keçirilməsi üçün lazım olan tədbirlər görülmüş oldu. Ən başlıcası, YAP-ın böyük potensialı uğurla səfərbər edildi. Bir yandan bizim fəallarımız, digər yandan çoxsaylı üzvlərimiz, partiyamızı dəstəkləyənlər, təəssübkeşlər seçki kampaniyasına bu və ya digər dərəcədə cəlb edildilər. Əlbəttə, YAP-ın inandığı, gözlədiyi qələbənin rəhnini Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin uğurları və vətəndaşlarımızın bu siyasəti dəstəkləməsi, yüksək qiymətləndirməsi təşkil edir. Bu, bizim inamımızı daha da artırırdı və təbii olaraq YAP-ın böyük gücünə əlavə güc verirdi.

Beləliklə, aprelin 11-də keçirilmiş prezident seçkilərində xalq öz sözünü dedi. Həmin gün xalq növbəti 7 il üçün ölkənin taleyini kimə tapşıracağını müəyyənləşdirdi. Seçkilərdə mütləq üstünlüklə qalib gələn İlham Əliyev bir lider olaraq Azərbaycanı bu müddətdə inkişafın daha möhtəşəm zirvələrinə yüksəldəcək. Qarşıdakı illərdə də sabitliyin, sürətli inkişafın, güclü iqtisadiyyatın şahidi olacağıq. Azərbaycanımızı inkişaf edən, gözəlləşən bir ölkə kimi görəcəyik.

***Rəşad CƏFƏRLİ,***
***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***